# Görkəmli şərqşünas-alim Aida İmanquliyevanın xatirəsi anılıb



**Sentyabrın 19-da AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun kollektivi İkinci Fəxri xiyabanda görkəmli şərqşünas-alim, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın məzarını ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, AMEA-nın vitse-prezidenti, Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva 33 il öncə dünyasını dəyişmiş böyük alimin keçdiyi həyat yolundan danışıb, Aida xanımın həm bir alim kimi dünya şərqşünaslıq elminə böyük töhfələr verdiyini, həm də bir qadın, ana, həyat yoldaşı kimi Azərbaycan qadınına örnək bir ömür yaşadığını qeyd edib.

Aida xanımın elmi fəaliyyətinin hər bir dövrünü xatırladan Gövhər xanım onun müasir ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə açdığını, silinməz iz qoyduğunu, Şərq-Qərb qarşılıqlı ədəbi əlaqə və təsiri problemini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alim olduğunu söyləyib. Böyük alimin qoyduğu zəngin elmi irslə yanaşı, elmi kadrların hazırlanmasında göstərdiyi xidmətlərdən söz açan G.Baxşəliyeva, onun Şərqşünaslıq İnstitutuna rəhbərlik etdiyi dövrdə bacarıqlı bir təşkilatçı kimi özünü göstərdiyini vurğulayıb.

Daha sonra Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Vüqar Məmmədov çıxış edərək Aida İmanquliyevanın ərəbşünaslıq elminə böyük töhfələr verdiyini söyləyib, xarici ölkələrin görkəmli alimlərinin Aida xanımın dünya elmində xidmətlərini çox yüksək qiymətləndirdiklərini xatırladıb.

Azərbaycan. - 2025.- 20 sentyabr (№201).- S.4.